

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 AVQUST 2024-cü il ŞƏNBƏ № 163 (7921) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# Çoxvektorlu müstəqil siyasət

## *Yeni dünya düzənində önəmli mövqeyə malik ölkəmizlə qürur duyuruq*

*Bu gün qürur duyduğumuz müstəqil və güclü Azərbaycan dövləti Heydər Əliyev siyasi irsinin və onu ardıcıl şəkildə zənginləşdirən, inkişaf etdirən Prezident İlham Əliyev siyasətinin təntənəsi və zirvəsidir. Sağlam təməl üzərində davam etdirilən, milli maraqlara söykənən, müasir dövrün çağırışlarına cavab verən bu siyasət qarşıdan gələn dövrdə də əldə edəcəyimiz nailiyyətlərin əsasında dayanacaq. Azərbaycan iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə daha geniş coğrafiyada qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında dünyada ən yüksək iqtisadi artıma malik olan, islahatlar həyata keçirən və investisiya yatırılan ölkə olduğu bildirilir. "Financial Times" qrupunun "FDİ İntelligence" nəşrinin 2023-cü ildə ən çox birbaşa xarici investisiya yatırılan dünya şəhərlərinin TOP 100 reytinqində Bakının 3-cü yerdə qərarlaşması da bunu təsdiq edir.*

# Yeni dünya düzənində önəmli mövqeyə malik ölkəmizlə qürur duyuruq



**(əvvəli 1-ci səhifədə)**

Dövlətin sosial siyasətinin əsasında əhalinin maddi təminatının gücləndirilməsi, sosial rifahın artırılması prioritet istiqamətdir. Məhz dövlətin güclü sosial tədbirləri nəticəsində yoxsulluğun səviyyəsi minimuma endirilir, əməkhaqları, pensiyalar, sosial müavinətlər ilbəil artırılır, xalqın sosial rifah halı dinamik olaraq güclənir.

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər və birgünlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa açıb. 2026-cı ilə qədər Böyük Qayıdış proqramının birinci mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı nəzərdə tutulur. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Azərbaycan Qarabağ bölgəsini elə intensiv şəkildə bərpa edir ki, dünyanın ən gözəl turizm məkanlarından birinə çevriləcək. Müzəffər ordunun Ali Baş Komandanı, dünya azərbaycanlılarının Lideri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qarşısında daha geniş üfüqlər açılıb. Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Bütün bunlar bir daha onu göstərir ki, dövlətimiz güclüdür və siyasi iradə bütün çətinliklərə qalib gəlir.

Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən islahatlar kursu sosial-iqtisadi, hüquq-məhkəmə, siyasi, struktur və kadr hazırlığı istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir. Bütün bunlar nəticə etibarilə ölkəmizin daxili siyasi uğurlarını şərtləndirir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitinin dönməzliyini təmin edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə xidmət göstərir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılıb. Başqa sözlə, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik şəkildə davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında əsas amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsidir. Bu gün Azərbaycan dövləti öz çiyninə ağır, amma şərəfli bir yük götürüb, özü ilə bərabər, bütün regionun inkişafını təmin edəcək yeni beynəlxalq layihələri reallaşdırır. Bu mənada, bölgədə yeni beynəlxalq nəqliyyat dəhlizlərini yaratmağı təklif edən rəsmi Bakıya dəstək olan region ölkələri də gələcək əməkdaşlıqların perspektivlər vəd etdiyini anlayırlar. Azərbaycan Prezidentinin xarici siyasəti xalqımızın mənafeyini, müstəqil dövlətimizin inkişafını və perspektivlərini müəyyənləşdirir. Bununla yanaşı, ölkənin milli və enerji təhlükəsizliyinin təmin edilməsi məsələsi də dövlət başçımız tərəfindən həyata keçirilən ən mühüm vəzifələrdən biridir.

Xalqımız öz müqəddəratını azərbaycançılıq ideyasına bağlayır, bu ideyanı uğurla icra edən ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək, hərtərəfli inkişafa və tərəqqiyə doğru inamla irəliləyir. Məhz xalq ilə iqtidar arasında sarsılmaz birlik müstəqil dövlətimizi daha da gücləndirir.

**Mustafa KAMAL,**
**"Respublika".**